**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi əhalinin siyahıyaalınmasına cəlb ediləcək işçilərin vəsiqələrinin yerləşdirilməsi üçün pəncərəsinin ölçüsü 74x105 mm olan və boyundan eni azı 1,5 sm, uzunluğu isə 45 sm sıxaclı iplə asılan 44000 ədəd üfüqi, şəffaf plastik yaxa kartlarının satınalınması məqsədilə**

***KOTİROVKA SORĞUSU ELAN EDİR***

Kotirovka sorğusunda “Dövlət satınalınmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən satınalınma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında” 2018-ci il 21 dekabr tarixli qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

İddiaçılar “Kotirovka sorğusunun şərtlər toplusu”nu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs Qasımova Qönçə, telefon: (012) 538-62-57). Təkliflər 2019-cu il mart ayının 29-u saat 18:00-dək qəbul edilir. Təklif zərfləri 2019-cu il aprel ayının 01-i saat 11:00-da yuxarıda qeyd olunan ünvanda 414-cü otaqda açılacaqdır.

**Tender komissiyası**